2019-cu il dekabrın 23-nə keçirilmiş bələdiyyə seçkilərində vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizliklərdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü İlham Məmmədovun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 yanvar 2020-ci il tarixli 70 saylı müraciəti üzrə

**RƏYİ**

Bakı şəhəri 9 yanvar 2020-ci il

2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Yevlax rayonunun Yuxarı Qarxun kənd sakini İbrahimov Elman Möhübbət oğlu 9 yanvar 2020-ci ildə Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (Mərkəzi Seçki Komissiyası) teleqramla müraciət edərək 48 saylı Yevlax seçki dairəsi üzrə Yuxarı Qarxun bələdiyyəsinə keçirilən seçkilərin saxtalaşdırılmasını iddia etmiş, bununla bağlı müvafiq tədbirlərin görülməsini xahiş etmişdir.

Mən, ekspert qrupunun üzvü İlham Məmmədov həmin müraciəti nəzərdən keçirərkən onun müddət ötürülməklə verildiyini müəyyən etdim.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112.1-ci maddəsinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci və 4.1.2-ci bəndlərinə əsasən, seçki subyektləri vətəndaşların seçki hüquqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) həmin qərarın dərc edildiyi və ya alındığı, hərəkətin (hərəkətsizliyin) baş verdiyi gündən və ya maraqlı şəxsin bu haqda məlumat aldığı gündən başlayaraq 3 gün müddətində şikayət verilə bilər.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1.1-ci, 1.2-ci, 4.1.2-ci, 7.1-ci və 7.10.2-ci bəndlərinə əsasən **r ə y ə g ə l d i m :**

1. 2019-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Yevlax rayonun Yuxarı Qarxun kənd sakini İbrahimov Elman Möhübbət oğlunun Mərkəzi Seçki Komissiyasına daxil olmuş 9 yanvar 2020-ci ildə tarixli 70 saylı müraciəti qanunvericiliklə müəyyən olunmuş şikayətvermə müddəti ötürülməklə verildiyindən ərizəçiyə geri göndərilsin.
2. Rəy qəbul edildiyi andan 18 saatdan gec olmayaraq dərc olunsun (internet saytına yerləşdirilsin) və surəti müraciət etmiş şəxslərə göndərilsin.

Ekspert qrupunun üzvü İlham Məmmədov